# XALQ ARTİSTLƏRİNİN ŞƏHİD FUTBOLÇU NƏVƏSİ


İlqar Vüqar oğlu Bürcəliyev

*"Ata, biz tanklardayıq, gedirik. Özünüzdən muğayat olun! Anamgilə heç nə demə. Haqqını halal et!.."*

Bu sözlər Vətən Müharibəmizin ilk şəhidlərindən sayılan İlqar Vüqar oğlu Bürcəliyevin son mesajıdır. Qəhrəman gəncimiz sentyabrın 28-də Tərtərin Talış kəndi və Talış yüksəkliyi uğrunda gedən döyüşlərdə müqəddəs şəhadət məqamına yüksəlib. "Zirə" klubunun futbolçusu olan İlqar artıq 1 il 3 aydır ki, həqiqi hərbi xidmətdə idi. Gələn ilin yanvar ayında xidmətini başa vurub qayıdacaq, həsrətlə yolunu gözləyən valideynlərinin arzularını reallaşdıracaq, neçə mötəbər yarışda doğma komandanın şərəfini qoruyacaqdı... Lakin sentyabrın 27-də işğalçıların növbəti təxribatının dəf edilməsi zəminində başlanan haqq savaşının müsəlləh əsgəri kimi canından, qanından qorxmadan, çəkinmədən silaha sarıldı, ölümün gözünə dik baxdı, ən uca şəhidlik zirvəsini seçdi. Ruhu ana yurdun səmalarına, vücudu qanla yoğrulan torpağımıza qovuşdu.

O həm də görkəmli sənətkarlarımız, xalq artistləri Məhəmməd Bürcəliyev və Sədayə Mustafayevanın nəvəsi, tanınmış teatrşünas-tənqidçi Anar Bürcəliyevin qardaşı oğludur. Anar müəllim də igid şəhidimiz haqqında kövrək xatirələrini bölüşür: "Elə bil ki, hər şeyi öncədən bilirdi İlqar. Onu hərbi xidmətə yola salanda Biləcəri stansiyasında dedi ki, mən gedirəm, amma qayıtmayacam, şəhid olacam. Sizə deyim ki, İlqar balamız çox mətin və qorxmaz idi. Elə körpəliyində əlindən taxta və oyuncaq tapançalar düşməzdi. Hətta yatanda da tapança oyuncaqları yastığının yanında olardı. Həmişə əlinə və üzünə Azərbaycan bayrağı çəkirdi, dövlət bayrağına sarılmağı, çiyninə asmağı çox sevərdi. Elə sonda da bu bayrağa sarılaraq şəhid oldu..."

Atası Vüqar Bürcəliyev: (gözləri yaşlı halda) "Onu milli komandaya çağırmışdılar, amma əsgərlik vaxtı gəldi, Vətənə xidmət borcunu hər şeydən üstün tutdu, dedi, gedirəm hərbi xidmətə... Geyindiyi hərbi formaya, manqa komandiri təyin olunduğuna görə çox sevinirdi, vətənpərvərlik duyğuları ilə aşıb-daşırdı. Çox ağır döyüş olub, 3 nəfər yaralı, bir şəhid yoldaşını güllə yağışı altından çıxarıb. Mən oğlumla fəxr edirəm, elə belə də olmalıydı, dostlarının nəinki yaralısı, heç ölüsünü də qoyub getməzdi. Ölüm ayağında başını dizinə qoyduğu Əvəzlə görüşdüm, döyüş meydanından kənarlaşdırmaq istəyiblər, amma onların tərpənməsinə imkan verməyib, əlini sıxaraq hamının birgə qayıdacağını söyləyib...

Mən hər gün, hər an İlqarla birlikdəyəm, tez-tez eyvandan asılan bayraqla danışıram, külək qaldırıb üzümə toxundurur, sanıram ki, oğlumdur... "

Şəhidin anası: "Tərtərdəki "N" saylı hərbi hissədə xidmət edirdi. Pandemiyaya görə yanına gedə bilməmişdik, səkkiz ay idi ki, uşağı görmürdüm. Dalbadal - ayın 20-si, 21-i getdik. Ayrılanda maşının qabağı ilə nizami addımlamağa başladı. Mən uşağın belə nizamla addımlamağını birinci dəfə idi görürdüm. Dalınca baxdım, mindim maşına, sonra fırlanıb yenidən ardınca baxdım. Yoldaşım idi, bir də yoldaşımın dostu. Dedim ki, uşaq elə baxdı... Dilimə gətirə bilmədim ki, son dəfə görüşürük".

Nənəsi Sədayə xanım: "Elə bil Vətən uğrunda qurban getməyi qarşısına məqsəd qoymuşdu. Deyirdi, içimdə bir hiss var ki, şəhadətə yetişəcəm. Axır vaxtlar məktubları üzə çıxdı, yazırdı ki, tərxis olunmasam, cəbhəyə getsəm, mən də bir Mübariz olacam...

Cənab Prezidentimiz, Ali Baş Komandan İlham Əliyevə təşəkkürümü bildirirəm, onun uzaqgörənliyi, xalqımızın, ordumuzun rəşadəti sayəsində torpaqlarımız işğaldan qurtuldu!"



Əmisi Anar Bürcəliyev: "İlqarımdan geriyə xoş xatirələri qaldı... Fotoları ən böyük təsəllimizdir. Hər gün dostları, sinif yoldaşları gəlirlər. İlqar əla futbolçu idi. Uzun müddət Kəpəz Futbol Klubunda 17 U yaşlararası milli komandamızda oynayıb. Sonra "Zirə" Futbol Komandasına keçmişdi. Hər bir oyunu xatirimizdədir. Şəhidim həm də model İlqar Əliyev məktəbinin tələbəsi idi. Modelliyə də həvəsi vardı. Bir neçə dəfə model olaraq sertifikat və diplomlara layiq görülüb.

Qeyd edək ki, Azərbaycan Primer Liqasında "Zirə" və "Qarabağ" futbol komandaları arasında baş tutan oyunda İlqarın xatirəsi yad edilib. Oyun meydançasında onun fotosu da asılmışdı.

Şəhid İlqar Bürcəliyev sentyabrın 29-da Gəncədə ata-baba yurdunda, Şəhidlər Xiyabanında böyük izdihamla torpağa tapşırılıb.

**Allah rəhmət eləsin.**

## İGİD TOPÇU, İSTEDADLI TƏRCÜMƏÇİ, PEŞƏKAR SƏS REJİSSORU



Elnur Allahverdizadə



**Elnur Allahverdizadə** 1995-ci ildə Sumqayıt şəhərində doğulmuşdu. 2016-cı ildə BSU-nun Tərcümə fakültəsini çex dili ixtisası üzrə bitirib. Bu il sentyabr ayının 27-də Ermənistan silahlı qüvvələri Azərbaycana qarşı yeni hərbi təcavüzə başlayanda minlərlə qeyrətli gəncimiz kimi Vətən uğrunda müharibəyə yollanıb. Xocavənd, Ağdam istiqamətində gedən döyüşlərdə iştirak edib. Düşmənə qarşı aparılan hərbi əməliyyatlarda həmişə öz fəallığı, cəsarəti ilə seçilib. Noyabr ayının 7-si səhər saatlarında top mərmisindən qopan qəlpə boğazına dəyib və şəhid olub. Bir gün sonra Sumqayıtdakı Şəhidlər Xiyabanında torpağa tapşırılıb. Cəmi 25 yaşı var idi igid Elnurumuzun...

Atası Əli Həsənov: "Biz əslən zəngilanlıyıq, amma Elnur Sumqayıtda doğulub böyüyüb. Çox istedadlı, çevik, nikbin uşaq idi. Orta məktəbi əla qiymətlərlə bitirdikdən sonra Bakı Slavyan Universitetinə qəbul olundu, tərcüməçilik ixtisasına yiyələndi. Eyni zamanda, rejissor kimi də çalışırdı. Müddətli həqiqi hərbi xidmətdən 4 il əvvəl gəlmişdi. Sentyabr ayındakı səfərbərlik vaxtı ilk çağırışçılardan idi. Vətən müharibəsinə də könüllü getdi. Tez-tez zəngləşib danışırdıq, lakin cəbhədəki fəaliyyəti barədə bir kəlmə də demirdi, "Hər şey yaxşıdır, özünüzdən muğayat olun", vəssalam. İndi başa düşmüşəm ki, oğlumu yaxşı tanımamışam, onun nələrə qadir oldugunu bilməmişəm. Buradan bütün valideynlərə səslənirəm: övladınızı yaxından tanımağa çalışın! Qələbəyə 2 gün qalmış şəhid oldu, indi bizim bir gözümüz gülür, biri ağlayır. Allah bütün şəhidlərimizə rəhmət eləsin".

Şəhidin anası Süsən xanım: "Mən Elnuru qəhrəman anası olmaq üçün böyütməmişdim. Onu zaman yetişdirdi. İnanın, heç bir ana istəməz ki, oğlunu itirsin, amma onun şəhadətindən sonra deyər ki, şükür Allaha, zəhmətim boşa çıxmadı. Heç zaman gözləməzdim ki, evimdən körpə kimi çıxan oğlum üstümə şəhid, qəhrəman məqamında qayıdacaq... Qələbə xəbərini eşidən gün qəlbimdəki kədər sevinclə əvəzləndi, səhər tezdən durub ziyarətinə getdim. Məzarı üstdə dayanıb dedim ki, oğul, rahat uyu, arzuların həyata keçdi. Nə yaxşı, Elnurun qanı tökülən torpaq düşmən tapdağı altında deyil".

"Vətən müharibəsi başlayandan bir gün sonra hərbi xidmətə yollanmışdı. Ağdam uğrunda gedən artilleriya döyüşlərində fəal iştirak edib. Əsgər yoldaşları deyir ki, çoxsaylı qəhrəmanlıq nümunələri göstərib, hamıya ürək-dirək verir, topun arxasında igid kimi dururdu."

Bunu şəhidin dayısı oğlu Orxan Həsənli deyir. O həmçinin şəhidimizin səs rejissoru kimi çalışdığını da bildirib: "Elnur səs rejissoru idi, bir çox film və seriallarda, reklam çəkilişlərində çalışmışdı. İşində həqiqətən də peşəkar idi, onu tanıyanlardan, bilənlərdən də soruşa bilərsiniz. Özünəməxsus zarafatları, danışığı, gülüşü, mehriban bir insan olması ilə hamının yaddaşında qalıb".

**Allah rəhmət eləsin.**



Əliağa Eldəniz oğlu Məmmədov

# HƏYATI BAHASINA KOMANDİRİNİ XİLAS EDƏN QƏHRƏMAN

Maştağa kənd sakini Əliağa Eldəniz oğlu Məmmədov. 255 saylı məktəbi bitirən, Akademik Musiqili Teatrda işıqçı işləyən gənc. Vətən Müharibəsində qəhrəman olmuş Əliağa.

Döyüşdə düşmən minaatanlardan atəşə başlamışdı. Əliağa minalardan birinin tabur komandirinin yanına düşəcəyini sezir. İrəli atılır, komandiri yerə yıxır, vücudunu ona sipər edir. Mina partlayır, qəlpələr Əliağanın bədəninə sancılır. Əliağa canı bahasına komandiri xilas edir.

Əliağa Məmmədov 255 saylı Maştağa kənd məktəbini bitirəndən sonra peşə məktəbinə daxil olub. Sonra Azərbaycan Dövlət Akademik Musiqili Teatrında işıqçı kimi işə başlayıb. Teatrın direktoru, Əməkdar incəsənət xadimi Əliqismət Lalayev onun yüksək nizam-intizamı, zəhmətkeşliyi barədə danışır: "Əliağa cəmi bir neçə ay bizim teatrda çalışdı. İşində çox məsuliyyətli idi. Az müddətdə işi o qədər dərindən öyrənmişdi ki, ona ancaq "sağ ol" deyirdilər. Teatrı, səhnəni ürəkdən sevirdi. Hər kəs də xətrini çox istəyirdi. Əsgər gedəndə hamıdan soruşmuşdu ki, qayıdanda mən yenə də teatrda işləyə biləcəm? Biz onun yolunu səbirsizliklə gözləyirdik. Sən demə bu gözləmənin sonu yox imiş. Şəhid olan günü evlərinə getmişdik. Hamı, böyük bir izdiham, onu son mənzilə yola salmaq üçün gəlmişdi..."

Teatrın işıq sexinin rəisi Nicat Həmidov: "Əliağa çox məsuliyyətli bir işçi idi. Mən böyük qardaş kimi ona bildiklərimi öyrətməyə çalışır, nəyin düz olub-olmadığını hər zaman ona başa salırdım. Teatra praktikaya gələndə fikirləşdim ki, yəqin vaxtını keçirəcək. Amma yanılmışdım. İşıq sexində hamı onu balaca qardaşı kimi çox istəyirdi. Sonuncu dəfə fevral ayının 2-də məzuniyyətə gələndə görüşmüşdük. Teatra gəlmişdi, işi üçün çox darıxdığını deyirdi. Amma bir müddət sonra onun şəhidlik zirvəsinə ucaldığını öyrəndik. Nur içində yatsın!"

**ƏSGƏR GEDƏNDƏ HAMIDAN SORUŞMUŞDU Kİ, QAYIDANDA MƏN YENƏ DƏ TEATRDA İŞLƏYƏ BİLƏCƏM? BİZ ONUN YOLUNU SƏBİRSİZLİKLƏ GÖZLƏYİRDİK. SƏN DEMƏ BU GÖZLƏMƏNİN SONU YOX İMİŞ. ŞƏHİD OLAN GÜNÜ EVLƏRİNƏ GETMİŞDİK. HAMI, BÖYÜK BİR İZDİHAM, ONU SON MƏNZİLƏ YOLA SALMAQ ÜÇÜN GƏLMİŞDİ..**

Akademik Musiqili Teatrın aktyoru və rejissoru Zaur Əliyev də bir müddət əvvəl onunla birlikdə işıq sexində çalışdığını bildirib: "Əliağa bizim teatra gələn gündən istiqanlılığı ilə hamının hörmətini qazanmışdı. İmkan verməzdi ki, kimsə iş görsün, can atırdı ki, nəsə öyrənsin. Nə vaxt nə xahiş edirdimsə, heç vaxt etiraz etmirdi. Hərbi xidmətə gedəndə mənimlə sağollaşdı və dedi ki, inşallah teatra qayıdacam. Əliağanın şəhid olmağını həmkarım Əmrah Dadaşov söylədi. Səhifələrdən birində şəkilini paylaşmışdılar, sözün düzü ilk gördüyüm an istəmədim ki, bu xəbərə inanım. İkimiz də çox pis olduq... Daha sonra necə şəhid olduğunu bildim və həyatdaykən onu daha yaxından tanımadığıma peşman oldum."

Maştağadakı dəfn mərasimində tabur komandiri iştirak edə bilməyib, hücum əməliyyatında olduğuna görə. Amma o, Əliağanın valideynlərinə telefonla ismarıc yollayıb: "Övladınız mənim həyatımı xilas etdi, taburun hücumunun qarşısını almağa çalışan düşmənə mane oldu. Belə şücaəti, qəhrəmanlığı yalnız filmlərdə görmüşdüm, kitablarda oxumuşdum. Bu gün oğlunuzu itirsəniz də, məni oğul saya bilərsiniz. Cəbhədən qayıdan kimi oğul təki xidmətinizdəyəm. Həyatımı sizə borcluyam".

İşıqçı Əliağa indi əbədi nur içindədir - xalqımızın digər şəhid övladları kimi...



# "ONU ATASIZ BÖYÜTDÜM, AMMA MƏNDƏN ÇOX VƏTƏNİ SEVDİ"



## "Vətən yaxşıdır"

mahnısının "XUDAYAR TƏSNİFİ" adlandırılmasına xeyir-dua verildi



*"Vətən yaxşıdır". 22 yaşlı bir əsgər döyüşlərin ortasında oxuduğu bu mahnı ilə bütün Azərbaycanda tanındı. Amma artıq bundan xəbəri yox idi. Çünki 44 günlük İkinci Qarabağ savaşında Zəngilan uğrunda döyüşlərdə şəhid olmuşdu.*
*Xudayar Yusifzadə 1998-ci il iyulun 15-də Bərdə şəhərində doğulmuşdu. Dünyaya gəlişindən 24 gün sonra Bərdənin tanınmış qarmon ustalarından olan atasını itirib. Yusifzadələr ailəsində 4 uşaq olublar - 3 qardaş və 1 bacı. Xudayar ailənin sonbeşiyi idi. Bərdə şəhərində Bülbül adına 1 nömrəli Uşaq İncəsənət Məktəbini bitirib. Subay idi.*





Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətində həqiqi hərbi xidməti bitirdikdən sonra, Sərhəd Qoşunlarında gizir kimi müddətdən artıq hərbi qulluğa başlayıb.

Tovuz döyüşlərində general Polad Həşimovun şəhidliyindən sonra döyüş bölgəsinə dəyişilmək üçün könüllü müraciət edib. Füzulidə yeni yaradılmış sərhəd-keçid məntəqəsində xidmətə başlayıb. Kəlbəcər, Cəbrayıl, Zəngilan istiqamətində döyüşlərə könüllü olaraq qatılıb. Murovdağ yüksəklikləri uğrunda döyüşlərdə igidlik nümunəsi göstərib. Zəngilanın Ağbənd kəndinin azad olunmasında şücaət göstərərək, yaralanmasına baxmayaraq onlarla düşməni məhv edib. Aldığı ağır yaradan şəhidlik zirvəsinə yüksəlib.

Həmin döyüşlərdən iki gün öncə Xalq artisti Əlibaba Məmmədovun mərhum qəzəlxan Əliağa Vahidin sözlərinə yazdığı "Vətən yaxşıdır" mahnısını oxuyarkən döyüş yoldaşları ilə özünü videoya almışdı. Həmin video sosial şəbəkələrdə trendə çevrilib

Şəhidimizin nənəsi Tovuz xanım: "Qəşəng səsi vardı, "Şuşanın dağları" və "Sarı gəlin"i xüsusilə yaxşı oxuyurdu. Dayısı onu bir-iki dəfə oxudandan sonra apardım qoydum musiqi məktəbinə. Məktəbi qurtaran ili onları göndərdilər Ağcabədiyə musiqi yarışmasına. Orada birinci yeri qazandı, tərifnaməsi də var. Sonra dedi, musiqi mənlik deyil, forma xoşuma gəlir, gedəcəm hərbi işə".

Xudayarın anası Radə Qurbanova danışır ki, ata-baba yurdu Ağdam 27 il idi işğal altındaydı və çəkdiyi vətən həsrəti o biri uşaqları kimi Xudayara da sirayət etmişdi: "Onu atasız, minbir əziyyətlə böyütdüm, amma məndən çox Vətənini, el-obasını, xalqını sevdi. Heç cəbhəyə yollananda da bizə bildirməmişdi. Zəng vurub deyirdi, narahat olmayın, sərhəd qoşunlarında işimdəyəm, hər şey qaydasındadır. Mən də özümü onun döyüşdə olmağından xəbərsiz kimi göstərirdim, bərk-bərk tapşırırdım ki, ehtiyatlı ol. Ən böyük arzusu ailə qurmaqla bağlı idi... (göz yaşlarına boğulur). Bir bacı, üç qardaşdırlar, sonbeşik Xudayardır, ortancılı evlənmiş, böyüyü qalmışdı. Həmişə zəng vuranda zarafatla söyləyirdi ki, qardaşımı tələsdir, qayıdandan sonra onu gözləməyəcəm, özümə toy edəcəm...

Xalq artisti Əlibaba Məmmədov müəllifi olduğu "Vətən yaxşıdır" nəğməsinin "Xudayar təsnifi" adlandırılmasına xeyir-dua verib.



Deyib ki, nur üzlü şəhidimiz Xudayar Yusifzadənin xatirəsinə ehtiram əlaməti olaraq nəğmənin adının dəyişdirilməsinə razıdır:

"O adam qanı və canı ilə bizə qulluq edib. Allah ona rəhmət eləsin, gözəl insandır, gözəl də oxuyub."

Xalq artisti Mənsum İbrahimov da qeyd edib ki, bu, qəhrəman şəhidin adının əbədiləşdirilməsi üçün yaxşı fikirdir.

**Qurban**